# Britaniya COP29-un uğurla keçməsi üçün ölkəmizlə tərəfdaşlıq etməyə hazırdır



**İqlim dəyişikliyinin qarşısının alınması və planetin "yaşıl" inkişafı üçün dünya ölkələrini bir araya gətirən COP tədbirlərinin son dərəcə əhəmiyyətli olduğuna inanıram. Bu fikri Böyük Britaniyanın enerji təhlükəsizliyi və "xalis sıfır" emissiyalar üzrə dövlət katibi Ed Milibend Azərbaycanın Böyük Britaniyadakı səfirliyinin yeni inzibati binasının açılışı ilə əlaqədar keçirilən tədbirdə çıxışı zamanı səsləndirib.**

Dövlət katibi indiyədək keçirilmiş COP görüşlərində razılaşdırılmış tədbirlərin davam etdirilməsinin, habelə COP29-da iqlim maliyyələşməsi məsələsi üzrə vacib razılığa gəlinməsinin iqlim məqsədlərinin təmin edilməsi baxımından mühüm əhəmiyyət daşıdığını qeyd edib. O bu kontekstdə iqlim problemlərindən ən çox əziyyət çəkən ölkələrə dəstək verilməsinin önəminə diqqət çəkib.

Britaniyanın dövlət katibi çıxışında dönə-dönə vurğulayıb ki, Britaniya tərəfi COP29-un uğurla keçməsi və gözlənilən nəticələrin əldə olunması üçün ölkəmizə hər bir dəstəyi verməyə və Azərbaycanla yaxından tərəfdaşlıq etməyə hazırdır.

***XQ***

Xalq qəzeti .- 2024.- 28 iyul (№ 158).- S.8.